# Görkəmli alim, istedadlı təşkilatçı

***Görkəmli alim, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Geologiya və Geofizika İnstitutunun direktoru, Azərbaycan Geoloqları Milli Komitəsinin prezidenti, əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor, akademik Akif Ağamehdi oğlu Əlizadənin 85 yaşı tamam olur.***

Akif müəllim Bakı şəhərində tanınmış həkimlər ailəsində anadan olmuşdur. Orta məktəbi medalla qurtarmış, Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsini əla qiymətlərlə bitirərək və dağ-mədən mühəndisi ixtisasına yiyələnmişdir. İstehsalatda bir müddət işlədikdən sonra gənc geoloq Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutuna qəbul olunur və bu institutla gələcək həyatını və fəaliyyətini bağlayır. Belə ki, o laborantdan institutun direktoru vəzifəsinə, aspirantdan akademikə qədər görkəmli alim və istedadlı elm təşkilatçısı kimi məzmunlu və çoxşaxəli həyat yolu keçmişdir. Gənc mütəxəssis - geoloq elmi tədqiqatlarının istiqaməti kimi geologiyanın klassik bölməsi olan - paleontologiya və stratiqrafiya sahəsində özünəməxsus zəhmətkeşliklə, məqsədyönlü və inadla çalışır, qədim təbaşir çöküntülərində belimnit adlanan onurğasız canlıların qalıqlarını öyrənir, zəngin heyvanat aləminin elmdə yerini müəyyən edir və öz tədqiqatları ilə Azərbaycanın təbaşir yaşlı çöküntülərinin regional stratiqrafiyasına dəyərli yeniliklər gətirir.

1961-ci ildə Akif Əlizadə aspiranturada təhsilini müvəffəqiyyətlə başa vurub namizədlik dissertasiyasını müdafiə edir, 1969-cu ildə 35 yaşında ona geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi verilir. Keçən əsrin 70-ci illərindən başlayaraq alim Qafqazın təbaşir dövrü hövzələrini yenidən tədqiq edir. Geologiya İnstitutunun elmi-təşkilati məsələlərinə rəhbərlik etdiyi dövrdə gərgin fəaliyyətinə baxmayaraq, Akif müəllim eyni zamanda geologiya elminin bu sahəsində müvəffəqiyyətlə elmi tədqiqatlarını davam etdirir, paleobiogeokimya məktəbinin yaranması üçün etibarlı zəmin yaradır.

43 illik müddət ərzində Akif Əlizadə akademiyanın qocaman elmi müəssisəsi olan Geologiya İnstitutuna (indi Geologiya və Geofizika) rəhbərlik edir və bu institutun çoxsaylı alimlər kollektivinin elmi nailiyyətlərini bütövlükdə onun adı ilə bağlamaq olar. Bu illər ərzində Akif Əlizadə Azərbaycan geologiya elminin irəliləməsi istiqamətində daim yeni elmi araşdırmalar axtarışında olmuşdur. Onun təşəbbüsü ilə Geologiya İnstitutu tərəfindən bir sıra xarici elmi mərkəzlərlə, xüsusən də Ərzurum Universiteti, Türkiyənin TUBİTAK Tədqiqat Mərkəzi, İran İslam Respublikasının Təbriz geologiya idarəsi ilə beynəlxalq əlaqələr yaradılmış, dünyanın aparıcı neft kompaniyaları: "Statoyl","Yunokal", "Amoko","Eksson" ilə elmi-praktiki əhəmiyyətli kontraktlar bağlamışdır.

Dünya standartlarına cavab verən elmi tədqiqatları yerinə yetirmək məqsədi ilə akademik Akif Əlizadə təşkilati yenidənqurmalar aparır; həmin illərdə elmi tədqiqatların keyfiyyətcə yeni səviyyəyə qalxması məqsədi ilə müasir analitik eksperimental baza yaradılır. Geologiya elminin demək olar ki, bütün istiqamətləri - stratiqrafiya, tektonika, filiz və xüsusən də neft geologiyası və geokimyası müvəffəqiyyətlə inkişaf edir. Həmin illər geofizika sahəsində də tədqiqatlar inkişaf etdirilmişdir. Son 25 ildə institut xarici ölkələrin elmi mərkəzləri, xarici firmalarla kontrakt işləri, qrant layihələri, müştərək tədqiqatlar aparmışdır. 180-dan artıq elmi-tədqiqat hesabatları yerinə yetirilmiş, bir sıra yeni atlaslar və xəritələr hazırlanmışdır.




Akademik Akif Əlizadənin rəhbərliyi altında Geologiya İnstitutunun ABŞ, Böyük Britaniya, Almaniya, Türkiyə, Rusiya, Ukrayna və dünyanın digər ölkələrinin alimləri ilə beynəlxalq elmi əlaqələri illər ötdükcə daha da genişlənir. Belə ki, artıq uzun illərdir Amerikanın Texnoloji İnstitutu ilə Qafqaz kolliziya zonasının müasir geodinamik vəziyyətinin tədqiqi, Almaniyanın Geologiya Elmləri və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycanda Qobustanın Daşgil palçıq vulkanından atmosferə çıxan qazların monitorinqi ilə əlaqədar müştərək tədqiqatlar aparılır. Rusiyanın, Qazaxıstanın, Moldovanın, Zaqafqaziya respublikalarının, həmçinin Çin Xalq Respublikasının geoloji xidmətləri ilə birlikdə Avrasiyanın geoloji məzmunlu xəritələr Atlasının tərtib olunması Geologiya İnstitutu tərəfindən yerinə yetirilmişdir.

Son bir neçə ildə institut tərəfindən geologiyanın bütün istiqamətləri üzrə - geofizika, geokimya, neft-qaz yataqlarının işlənməsi kimi fundamental və tətbiqi tədqiqatlar genişləndirilir və təkmilləşdirilir. İldən ilə layihələrin sayı artır. Onların institut tərəfindən yerinə yetirilməsi məqsədilə yeni müasir cihazlar və avadanlıqlar əldə edilmişdir. Qeyd etmək lazımdır ki, işlənilən beynəlxalq qrant layihələrinin sayına (80-dan artıq) görə, Geologiya və Geofizika İnstitutu Azərbaycanın elmi müəssisələri arasında, demək olar ki, liderdir. Bundan başqa, ötən illər institut tanınmış fondlarla, məsələn, "Soros", "İNTAS", "NATO", "CRDF", Ukrayna Elmi Fondu, Amerika Milli Elmi Fondu ilə əməkdaşlıq etmişdir.

2010-cu ildən başlayaraq, institutun alimləri Rusiya EA-nın Geoloji İnstitutu ilə elmi əməkdaşlıq müqaviləsi çərçivəsində Qafqaz regionunun palçıq vulkanlarını tədqiq edib, Ukrayna MEA-sı ilə Aralıq, Qara dənizləri və Xəzərin palçıq vulkanizmi müqayisəli təhlil olunub, yeni məlumatlar əldə edilmişdir.

2003-cü ildə BP kompaniyasının maddi və elmi-texnoloji köməyi ilə institutda hövzələrin modelləşdirilməsi Mərkəzi təşkil olunub, bu da yeni alimlər nəslinin hazırlanması üçün lazımi şərait yaradır. Bu işdə də sözsüz ki, akademik Akif Əlizadənin xidməti böyükdür. O, 1970-ci ildən institutun direktor müavini, 1976-cı ildən isə direktoru, hal-hazırda isə AMEA prezidenti kimi gənclərə xüsusi qayğı, gənc elmi kadrların yetişməsində müstəsna fəaliyyət göstərir. Hələ 1986-cı ildə onun təşəbbüsü ilə respublikamızda ilk tədris-elmi mərkəzi yaradılır ki, ali məktəb tələbələrinin, Azərbaycan Dövlət Neft-kimya İnstitutu (indi ADNSU) və BDU-nun tələbələri sırasında gələcəkdə Geologiya İnstitutunda işləmək üçün kadrlar hazırlanırdı. 2003-cü ildə institutun aspirant və dissertantlarının biliklərinin artırılması məqsədilə Akif müəllim Azərbaycan geologiyasının müxtəlif istiqamətləri mövzusunda məruzə kurslarının təşkil olunmasını təklif etmişdir. Akademiyanın vitse-prezidenti olandan sonra isə onun təşəbbüsü ilə Elmlər Akademiyasında gənc mütəxəssislər arasında, onları həvəsləndirmək məqsədi ilə müsabiqələr keçirilib ki, yaxşı hazırlıqlı, istedadlı gənc kadrlar müasir səviyyədə elmi tədqiqatlar aparmaq iqtidarında olsunlar. Geologiya və Geofizika İnstitutunda 2 ildə bir dəfə gənc alimlər və mütəxəssislər arasında beynəlxalq konfransların keçirilməsi də bir ənənə olmuşdur.

Bununla yanaşı Akif müəllim Azərbaycanın yaşlı alimlərini də yaddan çıxarmır, onların ölkəmizin geologiya elmini zənginləşdirməsini xüsusilə qiymətləndirir. Dünyasını dəyişmiş korifey alimlərimizin, məsələn: M.Abramoviç, M.Qaşqay, Ş.Əzizbəyov, Ə.Əlizadə, M.Əliyev, Q.Əlizadə, Ş.Mehdiyev, Ə.Şıxəlibəyli və digərlərinin yubileyləri institutda qeyd olunur.

2018-ci ildə akademik Əhəd Yaqubovun, Musa Əliyevin yubileyləri dövlət başçısının Sərəncamına əsasən keçirilmişdir.

Akif müəllim elmi nəşrlərin, kitabların, atlasların, xəritələrin tərtib olunmasına da xüsusi diqqət yetirir. Bu nəşrlərdə institutda aparılan tədqiqatların əhəmiyyətli nəticələri öz əksini tapır.

*(Davamı 4-cü səhifədə)*

# Görkəmli alim, istedadlı təşkilatçı

*(Əvvəli 2-ci səhifədə)*

Belə ki, son 10 ildə onun şəxsi rəhbərliyi və redaksiyası ilə "Azərbaycan geologiyası"nın 8 cildi rus, 4 cildi isə Azərbaycan dilində hazırlanıb çap olundu. Bu çox sanballı əsərdə son 50 ildə toplanan faktiki materiallar analiz olunmuşdur. Azərbaycan və Xəzərin Azərbaycan sektorunun 1:500000 miqyaslı yeni geoloji xəritəsi tərtib edilmiş və onlara izahat qeydləri Azərbaycan, rus və ingilis dillərində verilmişdir. İnstitutunun 70 illiyi ilə əlaqədar, 2008-ci ildə gözəl üslubda "Azərbaycan mineralları" ensiklopediyası, "Geoloji elmimizin sifətləri" qeyri - adi fotolar albomu və "Geologiya İnstitutunun 70 (1938 - 2008) və 80 (1939-2018)" illik yubileylərinə həsr olunmuş bukletləri də çap olunmuşdur.

Son illər bir sıra yeni kitab və monoqrafiyalar nəşr olunmuşdur. Onlardan Akif Əlizadənin müəllifliyi ilə çap olunan iki kitabı da qeyd etmək istərdim. Biri 2016-cı ildə "Springer" nəşriyyatının buraxdığı "Geosciences of Azerbaijan" əsəri, o birisi Azərbaycanda 150 ilə yaxın istismarda neft-qaz obyekti olan məhsuldar qat çöküntülərinə həsr olunmuş və 2018-ci ildə Rusiyada çap olunan iki cildli "Produktivnaə tolha Azerbaydjana" kitabıdır.

Geologiya İnstitutunun elmi nəticələri və onun rəhbəri akademik Akif Əlizadənin xidmətləri yüksək qiymətləndirilmiş, institutun 70 illik yubileyi ilə əlaqədar olaraq onun 44 əməkdaşı Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təltif olunmuş, onlardan bir qismi fəxri adlara, bir qismi də Prezidentin şəxsi təqaüdünü layiq görülmüşlər. 2008-ci ilin dekabrında, Akif müəllim Geologiya İnstitutunun fəaliyyətinə yekun vurarkən öz məruzəsində belə dedi: "Geologiya İnstitutunun 70 illik yubileyi bizə imkan verdi ki dünya geologiya elmində müasir mövqelərdən elmi problemlərin həlli çərçivəsində, bu prosesləri yenidən dərk edək. Geologiya İnstitutu növbəti səksən illiyində də Azərbaycanın gələcək sosial-iqtisadi inkişafına layiqincə diqqət yetirəcək".

Keçmiş illərdə olduğu kimi, yubiley ilində də akademik Akif Əlizadənin rəhbərliyi ilə çox əhəmiyyətli üç dövlət proqramı hazırlanmış və hökumət tərəfindən təsdiq edilmişdir: Bunlardan biri "Cənubi Xəzər çökəkliyinin Azərbaycan hissəsinin geodinamikası və karbohidrogen potensialının öyrənilməsi istiqamətində aparılacaq işlərin proqramı (2007-2014 illərdə)". Bu iş ADNŞ əməkdaşları ilə birgə görülüb; "Azərbaycanın metal yataqlarının hasilatında təbiəti mühafizə texnologiyalarının tədqiqi və tətbiqi (2008-2014 illər)" icra olunur. Və "Azərbaycan Respublikasında nadir geoloji obyektlərin qorunması və uzunmüddətli istifadə olunmasının tədbirlər planı (2009-2014 illər)" da görülüb, bu işlər Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birgə yerinə yetirilmişdir.

Elmi nailiyyətlərdən danışarkən, qeyd etmək lazımdır ki, 2010-cu ildə institutun bir qrup alimlərinə (Ad. A.Əliyev, E.H-M.Əliyeva, F.H.Dadaşov, İ.S.Quliyev, Ə.Ə.Feyzullayev) Cənubi Xəzər hövzəsinin palçıq vulkanizmi və neftqazlılığının öyrənilməsi üzrə silsilə işlərə görə, müstəqil Azərbaycan Respublikasının ilk Dövlət mükafatı laureatı fəxri adı verilmişdir. Akif müəllimin təşəbbüsü və onun rəhbərliyi altında ilk dəfə olaraq "Dünya palçıq vulkanları Atlası" üç dildə (Azərbaycan, ingilis və rus) tərtib edilib və 2015-ci ildə İtaliyada nəşr olunmuşdur.

2009-cu ildən başlayaraq, Geologiya İnstitutu Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondu ilə əməkdaşlığa başlamış və bu illər ərzində bir neçə layihə, o cümlədən pilot layihəsi də işlənilmişdir. Belə ki, skanerləşdirən elektron mikroskopun alınması və onun tədbiqilə Cənubi Xəzər Hövzəsinin neftli-qazlı çöküntülərinin biostratiqrafiyasının, submikron və nano səviyyəsində fiziki və fiziki-kimyəvi xüsusiyyətləri öyrənilib. Son illər institutun alimləri SOCAR-ın Elmin İnkişafı Fondunun dəstəyi ilə də layihə işləri yerinə yetirirlər.

Akif müəllim, AMEA prezidenti olandan sonra son beş ildə, Azərbaycan elminin inkişafına xüsusi diqqət yetirir. Bu illər ərzində onun rəhbərliyi ilə elmin təşkili, idarə edilməsi, yeni metodların tətbiqi, elmi potensialdan səmərəli istifadə olunması, elmin maddi-texniki bazasının gücləndirilməsi, elmlə təhsilin inteqrasiyası, kadr hazırlığı, xarici ölkələrlə elmi əlaqələrin genişləndirilməsi istiqamətlərində ölkə Prezidentinin dəstəyi sayəsində çox əhəmiyyətli işlər görülmüşdür.

2014-2015-ci illər Rəyasət Heyətinin Qərarı əsasında elmi tədqiqatların müxtəlif istiqamətləri üzrə ABŞ, İtaliya, Almaniya, İspaniya, Böyük Britaniya, Belarus və Kolumbiya institutları və universitetləri ilə 7 beynəlxalq laboratoriya yaradılmışdır. 2015-ci ildə AMEA-da magistratura da yaradılıb və hazırda burada 123 magistrant təhsil alır.

2016-cı ildə AMEA beynəlxalq təşkilatlar və xarici akademik qurumlarla (Thomson Reuters, BP Eksploreyşn, Estoniya EA), 2017-ci ildən isə Bolqarıstan, Ukrayna, Əlcəzair EA və Türkiyənin Selçuk Universiteti ilə əməkdaşlıq əlaqələri başlanmışdır.

2016-2017-ci illərdə bir neçə elmi-praktiki əhəmiyyətli məsələlər qəbul olunub: "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, AMEA-da Yüksək Texnologiyalar Parkının, onun bir sıra elmi müəssisələri ilə təhsil müəssisələrinin arasında baza kafedralarının, institutlarda təhsil şöbələrinin yaradılması. Elmlə təhsilin inteqrasiyasını təmin etmək məqsədilə 2017-ci ildə "AMEA-nın professoru" adı təsis olunmuşdur.

Bir mühüm məsələni də qeyd etmək istərdim, 2018-ci ildə Parisdə AMEA ilə Fransanın Montpellier Universiteti arasında əməkdaşlıq sazişi imzalanıb. Azərbaycanlı gənclər AMEA ilə yanaşı doktorantura səviyyəsində Fransada təhsil alacaq və iki ölkənin diplomuna yiyələnəcəklər.

2013-2017-ci illərdə 500-dən yuxarı mühüm elmi nəticə əldə olunmuş, 260 iş istehsalatda tətbiq olunmuş, 300-dən çox patent, 700 qrant alınmışdır, 140 elmlər doktoru, 750-dən çox fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 60-a yaxın alim beynəlxalq mükafat və diplomla təltif edilmişdir. Bu illər ərzində AMEA-nın fəaliyyəti mütəmadi olaraq akademiyanın layihəsi olan "Elm TV" və "Elm və innovasiya" verilişi vasitəsilə ictimaiyyətə çatdırılır.

Akif Əlizadənin elm sahəsində xidmətləri böyükdür və bunlara layiqincə qiymət verilmişdir. 1980-ci ildə o Azərbaycan EA-nın müxbir üzvü və 9 ildən sonra həqiqi üzvü seçilmişdir. 1991-ci ildə alim əməkdar elm xadimi adını almış və Azərbaycanın Dövlət mükafatı laureatı olmuşdur. Uzun illər o, AMEA Yer elmləri bölməsinin akademik katibi, AMEA Rəyasət Heyətinin üzvü olmuşdur. Akif Əlizadə məhsuldar fəaliyyətdədir. O, "AMEA Xəbərlərinin Yer elmləri seriyasının" və "Geologiya İnstitutunun Əsərləri" jurnallarının baş redaktoru, Azərbaycan geoloqlarının Milli komitəsinin prezidenti, Qafqaz regional idarələrarası stratiqrafik komissiyasının sədridir. 2014-cü ildə Rusiya Təbii EA-nın xarici üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik şurasının sədri seçilmişdir.

2018-ci ilin aprel ayında akademik Akif Əlizadəyə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəxri professoru diplomu təqdim edilib və Azərbaycanda geologiya və geofizika elminin inkişafında mühüm rolu olan akademikin adına təqaüd də təsis olunub. Noyabr ayında o, Ukrayna Milli Elmlər Akademiyasının 100 illik yubiley medalı ilə təltif olunmuşdur.

2019-cu ilin fevral ayında akademik Akif Əlizadə 85 illik yubileyi ilə əlaqədar olaraq AMEA-nın Fəxri Fərmanı ilə təltif edilib.

Akademik Akif Əlizadə elmi nailiyyətləri, uzunmüddətli elmi-təşkilati fəaliyyəti nəticəsində bir çox mükafata layiq görülmüşdür: O, "Şöhrət ordeni", "Fədakar əmək uğrunda", "Xalq təsərrüfatı nailiyyəti sərgisinin" medalları, 2008-ci ildə respublikada elmin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Şərəf" ordeni, 2014-cü ildə "İstiqlal" ordeni və Rusiya Təbiət Elmləri Akademiyasının "Elm və mədəniyyət fədakarı" Fəxri nişanı ilə təltif olunmuşdur.

Əlbəttə, bir məqalədə akademik Akif Əlizadənin çoxşaxəli elmi və elmi-təşkilati fəaliyyətini əhatə edib işıqlandırmaq mümkün olmur. Görkəmli-alim, istedadlı elm təşkilatçısı, çoxsaylı alim kollektivinə rəhbərlik etmək və bu kollektivlə işləmək qabiliyyəti, eləcə də yüksək mədəniyyət və erudisiyası, dərin şəxsi lətafəti ilə insanları özünə cəzb etmək bacarığı, xeyirxahlığı və digər həssas xüsusiyyətləri Akif Əlizadəni daha da ucaldır. Kimliyindən asılı olmayaraq, Akif müəllimə həlli mümkün ola biləcək məsələ ilə müraciət edənlər, ondan təxirəsalınmaz müddətdə müsbət cavab alır və həmin məsələ öz müsbət həllini tapır. O, bu xüsusiyyətlərinə görə, nəinki həmkarları arasında, həmçinin onu əhatə edən insanlar arasında dərin hörmət qazanmışdır.

60 ildən artıqdır ki, mən onunla Geologiya İnstitutunda işləyirəm, lakin Akif müəllimlə ilk tanışlığım 1953-cü ildə tələbə konfransında olmuşdur. Həmin konfransda ikinci kurs tələbəsi Akif Əlizadə Buzovna pilpiləsi palçıq vulkanının püskürməsinə həsr olunmuş çox maraqlı məruzə ilə çıxış etdi. Dərin məzmunlu məruzə yüksək qiymətləndirildi və bürünc medala layiq görüldü. Sonralar 1957-ci ildə mən onunla Elmlər Akademiyasında, Geologiya İnstitutunun aspirantları olarkən görüşdüm. İkimizin də geologiya elminə olan marağımız bizi yaxınlaşdırdı və bizim səmimi dostluq, elmi və işgüzar münasibətlərimiz bu günə kimi davam edir. Bu illər ərzində mən Akif müəllimin elmi və təşkilati-ictimai fəaliyyətini məğrurluq hissi ilə izləmişəm.

Akademik Akif Əlizadə elmdə keçdiyi şərəfli yol nəinki gənc geoloq alimlər, həmçinin digər elm mütəxəssisləri üçün həyat etalonu ola bilər.

Akif müəllim yaşının 85 ilinin yarım əsrdən artıq hissəsini fədakar əməyinə, həyatında keçdiyi yolu vicdanla, sədaqətlə keçməsinə həsr etmişdir. İndi akademik Akif Əlizadə hazırki zirvəsindən keçmiş həyatına, bununla belə, gələcəyi düşünərək hazırkı həyatına da baxa bilər və mən onu bu şanlı yubileyi münasibətilə səmimi qəlbdən təbrik etmək istərdim.

***Adil Əliyev***
***Geologiya və Geofizika İnstitutunun şöbə rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor, Əməkdar elm xadimi***